# Xalq artisti Tofiq Tağızadənin doğum günü qeyd olunub

**Kino sənətində ilk yaradıcılıq işində uğur qazanmaq hər rejissora nəsib olmur. Lakin onun ilk ekran əsəri "Görüş", həm də tamaşaçı auditoriyası ilə uğurlu bir görüş oldu və gənc rejissoru o vaxtdan bu sənətə bağladı.**



Azərbaycan və Özbəkistan pambıqçılarının dostluğundan bəhs edən filmi kino tariximizdə iki ölkənin aktyorlarının ilk müştərək ekran işi kimi olduqca qiymətlidir. Filmin quruluşunu isə gənc azərbaycanlı rejissor Tofiq Tağızadə verib. Onun debütü çox uğurlu alınıb və gənc rejissor ilk işində nəyə qadir olduğunu göstərə bilib. Şübhəsiz, "Görüş", "Uzaq sahillərdə", "Yeddi oğul istərəm", "Mən ki gözəl deyildim" filmlərinə baxmayan insan az tapılar. Bu filmlərin hər birinin öz süjeti var. Rejissorun mövzulara özünəməxsus yanaşma tərzi isə milli kinomuza yeni üslub və nəfəs gətirib.

Bu gün Azərbaycan kino sənətinin inkişafında böyük xidmətləri olan Xalq artisti, rejissor Tofiq Tağızadənin anadan olmasının 106-cı ildönümüdür. Onun adı çəkiləndə gözlərimiz qarşısında sevə-sevə seyr etdiyimiz bir çox filmlərdən maraqlı epizodlar canlanır.

O, 1919-cu ildə Bakı şəhərində anadan olub. Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsini bitirdikdən sonra C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında fəaliyyətə başlayan Tofiq Tağızadə milli kino tarixinin yeni səhifələrini yazıb.

Ömrünün 40 ilə yaxın dövrünü kinoda keçirən Tofiq Tağızadə çəkdiyi filmlərdə özünü professional rejissor kimi təsdiq etməyi bacarıb. Bu filmlərin əksəriyyətinin tarixi yarım əsrdən artıq bir dövrü əhatə etsə də, mövzu və ideya baxımından bu gün də aktuallığını qoruyub saxlayır.

Görkəmli rejissorun "Görüş"dən sonra ərsəyə gətirdiyi "Uzaq sahillərdə", "Əsl dost", "Mateo Falkone", "Mən rəqs edəcəyəm", "Arşın mal alan", "Mən ki gözəl deyildim", "Yeddi oğul istərəm", "Qızıl qaz", "Dədə Qorqud", "Babamın babasının babası", "Bağ mövsümü" və digər kinofilmləri onun yaradıcılığında əsas yer tutur. Bu filmlərdə Azərbaycanın tarixi, mədəniyyəti, məişəti çox böyük sənətkarlıqla öz əksini tapıb.

Tofiq Tağızadə hər birimizin yaddaşında zamanın problemlərini ekrana gətirən və insanları bu aktual məsələlər ətrafında düşünməyə sövq edən görkəmli rejissor kimi qalıb. Rejissorun İmran Qasımov və Həsən Seyidbəylinin ssenarisi əsasında çəkdiyi məşhur "Uzaq sahillərdə" filmi bütün zamanlarda Azərbaycan tamaşaçılarının sevə-sevə baxdıqları ekran əsəridir. Bu ekran əsəri 1959-cu ildə Kiyevdə Ümumittifaq Kinofestivalında diploma layiq görülüb, dahi bəstəkar Qara Qarayevə isə filmin musiqisinə görə kinofestivalın ikinci mükafatı verilib.

Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi Tofiq Tağızadə ömrünün son illərində studiya da yaradıb. Lakin amansız əcəl onun işlərini yarımçıq qoyub. O, 1998-ci il avqustun 27-də dünyasını dəyişib.

Azərbaycan.- 2025.- 8 fevral (№ 28).- S.11.